# POLİTOLOGİYA

UOT 316:001.83 (100)

## DÖVLƏTLƏRARASI MÜNAQİŞƏLƏRİ YARADAN FAKTORLAR

**D.A.RƏCƏBLİ**
***Bakı Dövlət Universiteti***
***dashgin07@yahoo***

*Məqalədə dövlətlərarası münaqişələr problemi ətraflı şəkildə araşdırılmışdır. Müəllif dövlətlərarası münaqişə anlayışının mahiyyətinin təhlilindən başlayaraq, onların həlli metodlarına qədər bir çox məsələlərə aydınlıq gətirmişdir. Xüsusilə diqqət onların yaranması faktorları üzərində cəmləşmişdir. Qeyd olunmuşdur ki, digər münaqişə növləri kimi dövlətlərarası münaqişələrin də düzgün həlli və idarə edilməsi üçün onların yaranması səbəblərinin dəqiq müəyyən edilməsi vacibdir.*

**Açar sözlər**: Münaqişə, əməkdaşlıq, sülh, dövlətlərarası, siyasi

Münaqişələrə verilmiş və çoxlarının məqbul saydığı geniş yayılmış təriflərdən biri L.Kozerin verdiyi tərifdir. O yazır: «Münaqişə – dəyərlər, müəyyən sosial status, hakimiyyət və məhdud maddi və mənəvi nemətlər iddiası uğrunda aparılan mübarizədir; bu mübarizədə münaqişədə olan tərəflərin məqsədi qarşı tərəfi neytrallaşdırmaq, ona zərər vermək və rəqibi məhv etməkdir» [4, 40]. Tərifdən də göründüyü kimi, müəllif geniş sahələrdə baş verən münaqişələri əhatə etməyə çalışmışdır və bu, həqiqətən də, məqbul sayıla bilər. Deyilənlərdən belə bir nəticə çıxarmaq mümkündür ki, müəyyən bir münaqişənin mövcudluğu üçün əsasən üç şərt olmalıdır:

1. qarşılıqlı münasibətdə olan ən azı iki tərəfin mövcud olması;
2. bu tərəflərin mənafelərinin, baxışlarının, mövqelərinin, tələbatlarının, məqsədlərinin üst-üstə düşməmələri;
3. tərəflərin bu fikir ayrılığını dərk etmələri, yəni münaqişə subyektlərinin şüurlu fəaliyyət göstərmələri.

Beynəlxalq münaqişələrin əsas subyekti dövlətdir. Dövlətlərarası münaqişələri araşdırarkən ziddiyyətlərin xarakterinin nəzərə alınması vacibdir. Ziddiyyətlər obyektiv və subyektiv olaraq, tərəflərdən birinin liderinin və ya siyasi rəhbərliyinin dəyişməsi ilə yox ola bilər. Bundan başqa, ziddiyyətlərin antaqonist və ya qeyri-antaqonist xarakteri özünü beynəlxalq münaqişənin formasında, miqyasında və vasitələrində göstərir. Beynəlxalq münaqişələr özlərinin zaman-məkan miqyasına görə də fərqlənirlər: regional, lokal və s.

Davametmə müddətinə görə münaqişələr uzun sürən, orta müddətli və qısa müddətli olur. Eyni zamanda bu növ münaqişənin subyektinin dövlətlər olmasını nəzərə alaraq aşağıdakıları fərqləndirmək olar:

- dövlətlərarası münaqişələr (hər iki qarşıduran tərəf dövlətlər, yaxud onların koalisiyaları ilə təmsil olunmuşdur);
- milli-azadlıq müharibələri (tərəflərdən biri dövlətlə təmsil olunmuşdur): müstəmləkəçilik əleyhinə, irqçilik əleyhinə, habelə demokratiya prinsiplərinə zidd fəaliyyət göstərən hökumətlərin əleyhinə;
- beynəlmiləlləşmiş daxili münaqişələr (dövlət başqa dövlətin ərazisindəki daxili münaqişədə tərəflərin birinə kömək edir) [1, 156].

İstifadə olunan vasitələrdən asılı olaraq silahlı beynəlxalq münaqişələri və yalnız dinc vasitələrdən istifadə olunan münaqişələri ayırmaq mümkündür. Bu halda silahlı münaqişələrdə hərbi potensialdan - kütləvi və ya hərbi gücdən məhdud istifadə oluna bilir. Bu da münaqişə tərəfləri arasındakı maraqlı ziddiyyətlərin səviyyəsi ilə təyin olunur. Beynəlxalq münaqişələrdə dinc vasitələrdən bir qayda olaraq ya kompleks, ya da seçim şəklində istifadə olunur (embarqo, ticarət məhdudiyyətləri, siyasi nümayəndəliyin aşağı salınması və s.)

Bəs, bu münaqişələrin yaranmasına hansı faktorlar səbəb olur? Onlardan bir neçəsini sadalamağa çalışaq.

Ümumiyyətlə, beynəlxalq münaqişələr aşağıdakı səbəblərdən baş verir.

İqtisadi münaqişə beynəlxalq arenada iqtisadi böhran, yəni, tələb-təklif, istehsal və istehlak, alıcılıq qabiliyyətli bazar tələbi ilə istehsalın mövcud miqyası arasında uyğunsuzluğun artmasıdır.

Beynəlxalq siyasi münaqişə – siyasi böhran. Bəzən ölkə daxilində hakimiyyəti bölüşdürmək, hakim olmaq, cəmiyyətdə nüfuzlu mövqe tutmaq, təsir dairəsinə malik olmaq kimi fəaliyyətlər sonda hökumət tərəfindən diqqəti ölkədaxili vəziyyətdən yayındırmaq üçün daha geniş miqyaslı münaqişə yaratmaq səyi ilə nəticələnir. Bundan başqa dövlətlər arasında siyasi münaqişələrə nail olmaq, millətlər arasında hər hansı millətin hüquqlarının pozulması səbəblərindən və s.-dən beynəlxalq – dövlətlərarası münaqişə yaranır.

Bəzən isə münaqişənin əsasında mənəvi amillər durur. Bu isə mənəvi münaqişənin yaranmasına səbəb olur. Mənəvi münaqişə ideyalar, əqidələr, dünyagörüşlərin, dinlərin (müxtəlif dinlər və onların cərəyanları arasında), yaradıcı ziyalıların irəli sürdükləri nəzəriyyələr, elmi ixtiralar və bədii əsərlərdəki baxışlarla bağlı mübarizədir.

Qeyd etmək lazımdır ki, bu fərqləndirmələrin hamısı şərti xarakter daşıyır. Çünki yalnız bir növə aid edilə biləcək münaqişə yoxdur və siyasi münaqişənin əsasında iqtisadi və ya ideoloji amillərin durması istisna hal deyil və ya əksinə.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, dövlətlərarası münaqişəni yaradan səbəblər və mənbələr çox olduqca münaqişə daha mürəkkəb xarakter alır. Bu isə ya onun olduqca uzun müddətə həll olunmasına, ya da tamamilə həll olunmamasına, barışmaz münaqişəyə çevrilməsinə gətirib çıxarır. Deməli,

münaqişələri yaradan səbəblərə xüsusi diqqət yetirilməlidir. Bunun isə ən səmərəli yolu münaqişələrə sistemli yanaşmadır. Hər hansı bir münaqişəli tərəfin ayrı–ayrılıqda üzvlərinin münaqişəyə nisbətən mövqeyi təklikdə bir cür, qrupun tərkibində isə başqa cürdür. Buradan belə nəticə çıxır ki, münaqişəni münaqişəli tərəflərini ayrılıqda bir struktur səviyyəsində nə öyrənmək, nə də həll etmək olar, ona mütləq sistem halında yanaşmaq lazımdır. Başqa sözlə desək, münaqişənin obyekti və predmetinə daxil olan bütün elementlər (dəyərlər, mənafelər, məqsədlər, maraqlar, ərazi, hakimiyyət, sosial vəziyyət və s.), münaqişənin subyektini xarakterizə edən bütün keyfiyyətlərin – psixoloji, əxlaqi, mədəni, dini, təhsil və s. qarşılıqlı təsir və nüfuzetmə şəraitində öyrənilməlidir [2, 35].

Öz xarakterinə görə dövlətlərarası münaqişələrin subyektləri arasındakı münasibətlər müttəfiqlik, əməkdaşlıq, qarşıdurma və düşmənçiliyə bölünür. Onlar dövlətlər, millətlər, dövlətlər daxilindəki siyasi, ictimai, dini və digər təşkilatlar, dövlət qrupları, ictimai xarakterli beynəlxalq təşkilatlar arasındakı iqtisadi, sosial, siyasi, elmi-texniki, mədəni, mənəvi, sosial-psixoloji, hərbi-strateji və digər əlaqə və münasibətlər sistemini ifadə edirlər. Münaqişə üçün qarşıdurma və düşmənçilik münasibətləri xarakterikdir.

Münaqişənin obyektində hər zaman müəyyən bir ziddiyyət olur. Ziddiyyət və münaqişəni eyniləşdirmək qəbuledilməzdir. Münaqişə və o cümlədən silahlı münaqişə sadəcə olaraq ziddiyyətin özünün təzahüretmə formasıdır. Ziddiyyət bəzən fikir ayrılığı formasında özünü büruzə verir ki, münaqişə formasına çatmır və dinc yolla – danışıqlar, məsləhətləşmə və b. həll oluna bilər. Belə olduqda ziddiyyət yalnız münaqişəli vəziyyət yarada bilər ki, ondan da münaqişə törəyə bilər. Lakin bu prosesin baş verməsi labüd deyil. Ziddiyyətin münaqişə doğurması üçün, birinci subyektlər tərəfindən ziddiyyət dərk olunmalı, ikincisi münaqişənin başlanğıc vəziyyəti razılaşdırılmalıdır.

Deyilənlərdən aydın olur ki, ziddiyyət qaçılmazdır. O, dünyada dəyişiklik və inkişafın əsasında durur. Bir ziddiyyət zaman keçdikcə digərini əvəz edir. Bundan başqa danışıqlar üzrə amerikan mütəxəssisi R.Freşin fikrincə, dünya nə qədər rəngarəng olsa, bir o qədər çox ziddiyyətlərlə qarşılaşır. Bu halda siyasətçilərin vəzifəsi ziddiyyətlərdən yaxa qurtarmaq deyil, onları məhsuldar edərək, dinc yolla həll oluna bilən etməkdir. Münaqişənin artıq baş verdiyi halda (ziddiyyətin münaqişə formasında özünü büruzə verdiyi halda) münaqişəli münasibətlərin yaranmasının ilk anlarında onun destruktiv funksiyası dinc yolla nizamlanma üsulları ilə minimuma endirilməlidir.

Müasir dövrdə sözsüz, münaqişənin uğurlu həlli üçün onun həqiqi səbəblərinin öyrənilməsi xüsusi tapşırıq kimi qarşıda durur. Baxmayaraq ki, münaqişənin təbiəti, növləri, səbəbləri haqqında müxtəlif fikirlər var.

Məlumdur ki, münaqişənin növləri müxtəlifdir. İndi biz xüsusi hala fikir verək. Münaqişələr içərisində üçüncü dövlətin, ABŞ, Rusiya kimi fövqəldövlətlərin yaratdıqları süni münaqişələr xüsusi yer tutur. Bu münaqişədə isə məqsəd çox sadədir – şəxsi dövlət maraqlarını təmin etmək, dünyanı iqtisadi,

siyasi və hərbi sferada idarə etmək. Bu prosesin gedişi zamanı makyavelizm prinsiplərindən istifadə edilir – məqsədə gedən yolda bütün vasitələr məqbuldur. Öncə münaqişə subyektləri arasında «viruslar» vasitəsilə - etnik qrupların öz müqəddəratını həll etmək hüququ, tarixi intiqam hissi, seperatizm və s. kimi münaqişəlilik münasibəti, krizis vəziyyəti yaradılır. Bu, münaqişənin gizli elementlərini oyadır ki, öz növbəsində bunlar da münaqişəni uzun müddətə həll edilən və ya ümumiyyətlə, barışmaz münaqişəyə çevirir.

Fövqəldövlətlərdə xeyli sayda institutlar fəaliyyət göstərir ki, onlar müxtəlif dünya xalqlarının tarixini, adət-ənənəsini, milli mentalitetlərini öyrənməklə məşğul olur. Bu institutların məqsədi spontan (qəflətən), sinergetik xarakterli elementə malik münaqişə ocağı yaratmaqdır ki, o zəncirvari xüsusiyyətə malik olsun və özündən yeni-yeni münaqişələr doğursun.

Demək olar ki, 1987-ci ildə akademik Ağanbekyan Fransadakı çıxışından sonra özü ilə çoxlu qurbanlar gətirmiş, region üçün böyük təhlükə doğuran, 1988-ci ildə Azərbaycan SSR-də yaradılmış Dağlıq Qarabağ münaqişəsi məhz belə münaqişələrdəndir. Yaradılan bu münaqişə Qərb, Qərbpərəst və erməni qüvvələrinin səyi nəticəsində seperatçı münaqişəyə çevrildi. «Etnosların öz müqəddəratını təyin etmək hüququ» adı altında başlayan, sonradan silahlı münaqişəyə çevrilən bu müharibə artıq 20 ildən artıqdır ki, davam edir.

Qafqazın digər regionlarındakı münaqişə ocaqları da (məsələn: Gürcü-Abxaz münaqişəsi də) analoji olaraq bu ssenari üzrə yaradılmışdır.

Süni yaradılmış bu münaqişələr özündə region millətləri üçün gələcəkdə böyük potensial faciə daşıyır. Demək olar ki, fövqəldövlətlərin bu gizli maraqları Cənubi Qafqazdakı münaqişələrin gizli və əsl səbəbləridir. Bütün münaqişələrdə münaqişə səbəblərini araşdırarkən gizli və görünən səbəbləri ayırd etmək lazımdır.

Bununla əlaqədar Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsinə bir qədər nəzər salaq. Azərbaycanın işğal edilmiş torpaqları ermənilər tərəfindən tez-tez «azad olunmuş ərazilər» elan olunur, «Ermənilər harada yaşayırlarsa, ora Ermənistandır» - tezisi Ermənistan parlamenti və dövlət rəsmiləri tərəfindən daha tez-tez eşitdirilir. Azərbaycan və Türkiyənin müxtəlif şəhər və əraziləri də erməni əraziləri elan olunur, bu ərazilərinin də «Azərbaycanlılardan, Türklərdən azad edilməsi» tələbləri ilə çıxışlar olunur.

Yuxarıdakı fikirlərdən çıxış edərək əvvəla, Qarabağ probleminin yaranma səbəbləri ilə bağlı suallar üzərində dayanaq. Son iyirmi ildə baş verənlər Qarabağ probleminin yaranmasının səbəblərini bir daha dəqiqləşdirməyə imkan verir. Siyasətdən xəbəri olan hər bir kəsə aydındır ki, bu səbəblər təkcə Dağlıq Qarabağ erməniləri liderlərinin, Ermənistan siyasətçilərinin, beynəlxalq təşkilat nümayəndələrinin dediklərindən ibarət deyildir. Bu münaqişənin yaranma səbəbləri dəqiq aydınlaşdırılmalıdır. Aydındır ki, bu səbəblər içərisində aşağıdakı amillər də vardır: dünyadakı bir sıra xalqların, xüsusilə Avropa ölkələrinin türkçülüyə münasibətindəki xof meyli, Qərbin və bir sıra başqa ölkələrin İslam dünyasına olan münasibəti, bu münaqişədə müəyyən

beynəlxalq təşkilatların marağı, beynəlxalq ictimai fikir, bu münaqişədə qonşu dövlətlərin hər birinin ayrılıqda marağı, Ermənistan dövlətinin marağı, Dağlıq Qarabağ ermənilərinin marağı, Azərbaycan tərəfindən atılan müəyyən addımlar və s. Bu amilləri yekun olaraq ekspertlər müəyyənləşdirə bilərlər. Əksər hallarda, həm biz, həm də qarşı tərəf bu amilləri birtərəfli izah edirlər: məsələn, ermənilər «türkçülüyü» faşizmdən də qorxunc bir şey kimi yayır, biz isə dünyada ən ədalətli, yüksək mədəniyyət nümunəsi kimi təqdim etməyə üstünlük veririk. O zaman biz «İyirminci əsr türkün əsridir!», «Türkün türkdən başqa dostu yoxdur!» çağırışlarının nə qədər yerli–yerində olduğunu aydınlaşdıra bilərik.

Azərbaycana qarşı aparılan ideoloji mübarizənin bir sahəsini də din sahəsində aparılan ideoloji təxribat təşkil edir. Guya Erməni – Azərbaycan münaqişəsi xristian – islam qarşıdurmasının tərkib hissəsidir və «Böyük Ermənistan» ideyası ilə əlaqədar deyil. Bununla ermənilər Qərbin və xristian dünyasının dəstəyini almaq, «islam fundamentalizminə» qarşı mübarizədə onların köməkliyinə arxalanmaq niyyətindədir. Bu bir sıra rus və Qərb politoloqlarının “Araz çayı İslam-xristian qarşıdurmasının sərhəd xətti”dir fikri ilə həmahəng səslənir, erməni ideoloji təbliğatının dəyirmanına su tökür, onların azərbaycanlılara qarşı apardıqları soyqırım siyasətinə bir növ haqq qazandırır [3, 129-130].

Göründüyü kimi, ermənilərin fikrincə, guya problemin kökündə din və sivilizasiya fərqləri dayanır və ona görə də onun həlli bu fərqlərin mövcud olduğu təqdirdə həmişəyaşar olacaqdır. Samuel Xantinqton və başqaları tərəfindən irəli sürülən və ermənilərin əlinə bir bəhanə verən bu ideyalara əsasən guya bu kimi qarşıdurmaların məqsədi Avropa sivilizasiyasını xilas etməkdir. Geri qalmış İslam dini və islam sivilizasiyasının nümayəndəsi olan azərbaycanlılarla inkişaf etmiş Avropanın və xristianlığın regionda nümayəndəsi olan ermənilər bir yerdə yaşaya bilməzlər, onlar Qafqazı tərk edib Araz çayından cənuba çəkilib getməlidirlər. Mövcud bütün dinlər və sivilizasiyalar Qərb üçün qorxuludur və ona görə də ermənilər Qərb mədəniyyətinin bir üzvü kimi onlara qarşı barışmazdır. Özlərinə Qərbin isti evində rahat yer tutmağa səy göstərən ermənilər lazım olanda özlərini Qərb mədəniyyətinin nümayəndələri kimi qələmə verməyə çalışırlar. Bununla da onlar Qərbin dəstəyini almaq və Qarabağda özlərini əbədiləşdirmək fikrindədirlər.

Azərbaycana qarşı aparılan işğalçı və soyqırım siyasətinin ideoloji cəhətdən əsaslandırılmasının bir istiqamətini də yeni qisasçılıq təşkil edir. Onlar 1905–ci il uydurma «erməni genosidinin» əvəzində azərbaycanlıların da «məsuliyyət daşıdığını» əsaslandırmağa çalışırlar. Bu hal bizə imkan verir ki, Dağlıq Qarabağ münaqişəsinin əsasında ideoloji ziddiyyətin də durduğuna əminliyimizi bildirək.

Məlumdur ki, beynəlxalq arenada mövcud olan münaqişə ocaqlarının böyük əksəriyyəti müsəlman dövlətlərinin ərazilərindədir və uzun müddətdir ki, həll olunmur. Yuxarıda qeyd etdiyimiz kimi onların əksər hissəsinin

səciyyəvi xüsusiyyətləri isə daha çox süni münaqişələrə uyğun gəlir və mövcud olan qlobal bir problemin-ikili standartların nəticəsi kimi özünü büruzə verir. Süni şəkildə yaradılmış bu münaqişələrin həll olunmaması və ya güc tətbiqi ilə həlli üsulu inkişaf etmiş, xristian fövqəldövlətlərinin mənafelərinə uyğun gəlir.

**ƏDƏBİYYAT**

**Azərbaycan dilində**

1. Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Bakı: BDU, 2006, 286 s.
2. Şəfi Üzeyir. Konfliktologiya. Siyasi – sosioloji təhlil. Bakı: Adiloğlu, 2002, 180 s.
3. Tağıyev Ə.M., Şükürov M.A. "Dağlıq Qarabağ probleminin ideoloji aspektləri" AMEA Fəlsəfə və Siyasi hüquqi tədqiqatlar İnstitutu "Sosial-siyasi problemlər" elmi məqalələr toplusu. 2002, 181 s.

**Rus dilində**

4. Запрудский Ю.Г. Социальный конфликт (политический анализ). Р.: Ростовский Университет, 1992, 426 с.

## ФАКТОРЫ ВОЗНИКНОВЕНИЯ МЕЖГОСУДАРСТВЕННЫХ КОНФЛИКТОВ

**Д.А. РАДЖАБЛИ**

**РЕЗЮМЕ**

В статье анализируется проблема межгосударственных конфликтов. Автор, начиная с анализа сущности межгосударственных конфликтов, внес ясность в определение методов решения этих конфликтов. Особое внимание уделялось факторам возникновения конфликтов. Для решения и управления межгосударственных конфликтов, как и другие типов конфликта, нужно четко определить причины их возникновения.

**Ключевые слова:** конфликт, содружество, мир, межгосударственный, политический

## THE FACTORS CREATING INTERSTATE CONFLICTS

**D.A.RAJABLI**

**SUMMARY**

The article investigates interstate conflicts. The author studies the definition of interstate conflicts, methods of their settlement and some other problems. Spacial attention is focused on the factors giving rise to interstate conflicts. It is noted that like other types of conflicts, settlement and management of interstate conflicts necessitate defining the reasons of their origin.

**Key words:** Conflict, collaboration, peace, interstate, political